## Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları

# İQTİSADİYYAT YÜKSƏLİR, ƏHALİNİN RİFAHI YAXŞILAŞIR

*Ötən hər il ölkəmiz üçün yüksək nailiyyətlər, misilsiz qələbələrlə tarixə çevrilir. Azad, müstəqil, suveren Azərbaycan dinamik inkişaf edir, dünyada güclü, qüdrətli dövlət kimi tanınır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 21 il ərzində ölkəmiz əsrə bərabər yol keçərək yeni uğurlara, şanlı qələbələrə, tarixi zəfərlərə imza atıb.*

*Dövlətimizin başçısı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində deyib: "2024-cü ili uğurla başa vururuq. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapmışdır. Ölkəmiz inamla inkişaf etmişdir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Ölkə iqtisadiyyatında müsbət inkişaf var, hərbi gücümüz artıb. Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır".*

Keçən il Ümumi Daxili Məhsul 4 faizdən, qeyri-neft sektorunda Ümumi Daxili Məhsul 6 faizdən, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Ölkəmizin 72 milyard dollardan artıq valyuta ehtiyatları vardır. Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır. Valyuta ehtiyatlarımız xarici borcu 14 dəfə üstələyir. Qarabağın və Şərqi Zəngəzurun bərpası, ölkənin hərbi gücünün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, yüksək makroiqtisadi göstəricilər əldə olunub.

2019-cu ildən başlayaraq dörd sosial paket layihəsi icra edilib. Cari ildə beşinci sosial paket icra ediləcək. Bu layihələrə ayrılan və ayrılacaq vəsait 7,5 milyard manat təşkil edəcəkdir. Bu, böyük









tarixi nailiyyətdir. Heç vaxt qısa müddət ərzində ölkəmizdə bu qədər işlər görülməyib. Azərbaycanın regional inkişafda əldə etdiyi uğurlar nəticəsində onun bölgələri dövlətdən dotasiya alan bir ərazidən ölkənin milli iqtisadiyyatının dinamik və davamlı inkişafına təkan verən aparıcı qüvvəyə çevriliblər.

Qazanılan misilsiz uğurların, tarixi qələbələrin arxasında möhtərəm Prezidentimizin müdrik, qətiyyətli və uzaqgörən siyasəti dayanır. Regionlarının inkişafı, tərəqqisi ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

2003-cü ilin prezident seçkilərindən sonra dövlətimizin başçısı cənab İlham Əliyevin ilk fərmanı da 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" olmuşdur. Həmin fərmanın məntiqi davamı olaraq 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" qəbul edilib. Regionların sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində bu və sonrakı illərdə qəbul olunmuş Dövlət proqramlarının (2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) mühüm əhəmiyyəti vardır.

Dövlət proqramlarının uğurla icrası sayəsində regionların özünəməxsus təbii, maddi əmək resurslarından, coğrafi, nəqliyyat-kommunikasiya imkanlarından səmərəli istifadə edilməsi, yoxsulluğun səviyyəsinin aşağı salınması, məşğulluq probleminin həlli üçün kifayət qədər imkanlar açılmışdır. Kənd təsərrüfatının və emal sənayesinin inkişafı sahəsində xeyli işlər görülmüş, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm irəliləyiş əldə olunmuşdur.

Həmçinin regionlarda qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına nail olunmuş, çoxlu sayda yeni müəssisələr, iş yerləri açılmış, əhalinin rifah halı yüksəlmişdir. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycanın hər bir regionu, bölgəsi inkişaf edir. Regionların sosial-iqtisadi inkişafı proqramlarının məqsədi də məhz budur ki, təkcə paytaxt Bakı deyil, Azərbaycanın hər bir şəhəri, rayonu, kəndi inkişaf etsin.

Proqramların icra olunduğu dövr ərzində dövlətimizin başçısı bölgələrə mütəmadi səfərləri zamanı çoxlu sayda infrastruktur və istehsal təyinatlı obyektlərin açılış və təməlqoyma mərasimlərində şəxsən iştirak etmişdir. Regionlara səfərləri çərçivəsində cənab Prezident ictimaiyyətin nümayəndələri və sahibkarlarla görüşmüş, qaldırılan məsələlərlə yaxından maraqlanmış, respublikamızın rayon və şəhərlərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində sərəncamlar imzalamışdır.

Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan ölkəmiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Uzun illər uğurla həyata keçirilən Dövlət proqramları və sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafına, onun maliyyə dayanıqlığının gücləndirilməsinə və sürətlə müasirləşməsinə, sosial problemlərin ardıcıl şəkildə həllinə və xalqın maddi rifahının yüksəlməsini təmin etmişdir.

Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Məhz bu məqsədlə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. 2026-cı ilin sonuna ölkə iqtisadiyyatında artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlılığı daha da güclənəcəkdir.

Lənkəran-Astara iqtisadi rayonu Lənkəran, Masallı, Cəlilabad, Astara, Lerik və Yardımlı rayonlarını əhatə edir. İqtisadi rayonun ümumi sahəsi 6,08 min kvadratkilometr olmaqla ölkə ərazisinin 7 faizini təşkil edir. Relyef xüsusiyyətlərinə görə rayonun ərazisi Lənkəran ovalığı və Talış dağlarından ibarət iki hissəyə ayrılır. İqtisadi rayonun ərazisinin 26 faizi meşələrlə örtülmüşdür. Region təbii şəraitinə görə ölkənin digər iqtisadi rayonlarından fərqlənir. Dünyada mövcud 11 iqlim qurşağından 7-sinə bu iqtisadi rayonun ərazisində rast gəlinir.

Lənkəran-Astara iqtisadi rayonunda iqtisadiyyatın əsasını aqrar-sənaye kompleksi təşkil edir. Rütubətli subtropik iqlim, məhsuldar torpaqlar, su və kifayət qədər əmək ehtiyatları kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır. Kənd təsərrüfatının strukturunda faraş tərəvəzçilik, çayçılıq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir.

Lənkəran, Masallı və Astara rayonlarının ovalıq hissəsi çayçılıq, tərəvəz və bostan məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Üzümçülük əsasən, Cəlilabad rayonunda inkişaf etmişdir. Lerik və Yardımlı rayonlarında əsas sahələr taxılçılıq, heyvandarlıq və tütünçülükdür. İqtisadi rayonda sitrus meyvəçiliyi, Xəzər sahilboyu ərazilərdə balıqçılıq mühüm yer tutur.

Gözəl təbii landşaft, isti və soyuq mineral sular, əlverişli iqlim şəraiti və inkişaf etmiş nəqliyyat şəbəkəsi kurort və turizmin inkişafı üçün əlverişli şərait yaradır.

**Lənkəranın nüfuzlu ziyalılarından biri, rayon ağsaqqallar şurasının sədr müavini Güloğlan Bağırov** 21 il ərzində dövlət dəstəyi ilə rayonda böyük abadlıq, quruculuğun görüldüyünü vurğulayaraq dedi:

- Ötən illərdə dövlətimizin dəstəyi hesabına Lənkəran Müalicə-Diaqnostika Mərkəzi, Beynəlxalq Hava Limanı, ən müasir sağlamlıq kurortu olan "Lankaran Springs Wellness Resort", Lənkəran Uşaq Sağlamlıq Mərkəzi, televiziya kanalının binası, Lənkəran Olimpiya İdman Kompleksi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialı, çoxlu sayda infrastruktur obyektlər tikilib istifadəyə verilmişdir.

Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu yenidən çəkilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Lənkəran-Lerik, Lənkəran-Vilvan-Osakücə-Türkənçil, Hirkan-Daştatük-Biləsər, Aşağı Nüvədi-Kənarmeşə-Şürük, Şürük-Vel-Qamışovka, Vilvan-Zövlə-Boladı-Liman, Liman-Nərimanabad-Balıqçılar, Səpnəkəran-Şürük-Sütəmurdov-Bəlləbur-Qurumba, eləcə də şəhərdaxili avtomobil yolları əsaslı şəkildə yenidən qurulub.

Lənkəran şəhərinin mərkəzində ulu öndərin adını daşıyan xatirə parkı salınıb. Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, Bayraq Meydanı tikilib, Şəhidlər Xiyabanı, Azərbaycanlıların soyqırımı abidə-kompleksi əsaslı şəkildə yenidən qurulub.

N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı, tarix-diyarşünaslıq muzeyi, mədəniyyət mərkəzi, rayon mərkəzi xəstəxanası və digər səhiyyə ocaqları yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilib.

2003-2024-cü illərdə rayonda 50-dən artıq məktəb binası tikilib. Lənkəran şəhər 1, 2, 3, 4, 5, 7 saylı tam orta məktəblər əsaslı təmir edilib. Viyən kəndində 432 şagird yerlik məktəb binası inşa, Mamusta kənd tam orta məktəbi əsaslı təmir olunur. Lənkəran Dövlət Universiteti üçün iki tədris korpusu və iki yataqxana binası inşa edilərək istifadəyə verilib. Yaxın vaxtlarda baytarlıq klinikasının inşasına başlanacaq. Heydər Əliyev Fondunun vəsaiti hesabına Lənkəran şəhər inteqrasiya təlimli internat tipli gimnaziya təmir olunub. Lənkəran peşə liseyi üçün tədris, yataqxana və laboratoriya binalarının tikintisi davam etdirilir.

"Cənub-Aqro" MMC-nin çəltik zavodu, Lənkəran şəhərində qənnadı məhsulları fabriki, "Həyat" çörək zavodu, Sütəmurdov kəndində konserv zavodu, çay fabriki, yeni hotellər və istirahət mərkəzləri tikilib. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri, evləri qəzalı vəziyyətdə olan sakinlər üçün çoxmərtəbəli yaşayış binaları tikilib istifadəyə verilib.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması diqqət mərkəzindədir. Osaküçə kəndində "Beta" şirkəti, İstisu qəsəbəsində "Yaşıl çay" fermer təsərrüfatı, Haftoni qəsəbəsində, Vilvan və Xanbulan kəndlərində fermer və ailə təsərrüfatları tərəfindən yeni çay plantasiyaları salınıb.

2024-cü ildə rayonda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 731 milyon 410,7 min manatlıq, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çox ümumi məhsul istehsal edilib.

Ümumi məhsulun 35 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 25,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 22,7 faizi sənaye, 11,4 faizi tikinti, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,9 faizi informasiya və rabitə sektorunun payına düşür. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 4,4 faiz artıb.

Çəltikçilik sahəsində işlər uğurla davam etdirilir. Keçən il rayonda 628,1 hektar çəltik sahəsindən 2763,4 ton məhsul toplanılıb. Bu da əvvəlki illə müqayisədə 620,3 ton çoxdur. Hektardan məhsuldarlıq 2023-cü illə müqayisədə 13,2 sentner artıb.

**Masallı** rayonunda da Dövlət proqramları uğurla icra olunur. Müasir üslubda tikilmiş yeni binalar şəhərin görkəmini xeyli dəyişib. Şəhərin mərkəzində Heydər Əliyev xatirə parkı salınıb, Heydər Əliyev Mərkəzi inşa edilib. Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq İncəsənət Məktəbi ən müasir layihə əsasında tikilmiş binalara köçürülüb. Şəhidlər xatirə kompleksi, Qəhrəmanlar parkı əsaslı şəkildə yenidən qurulub.

Bayraq Meydanı, Dövlət Rəmzləri Muzeyi, Olimpiya İdman Kompleksi, Masallı ASAN Xidmət, Regional Boks və Taekvando, Masallı Dövlət Aqrar İnkişaf Mərkəzləri, rayon polis şöbəsinin binası müasir memarlıq üslubunda tikilib.

Mərkəzi Rayon Xəstəxanası əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunun Masallı filialı xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərir.

Sənayenin inkişafı ilə əlaqədar Masallı Sənaye Məhəlləsi yaradılıb. Sənaye Məhəlləsində 7 sahibkarlıq subyekti fəaliyyət göstərir. "Masallı Tütün" MMC tərəfindən tütünqurutma sexi istifadəyə verilib.

2019-2023-cü illərdə kənd təsərrüfatı sahəsində yüksək nailiyyətlər əldə olunub. Rayonda taxıl yığımı 6,2 faiz, tərəvəz istehsalı 14,4 faiz, meyvə və giləmeyvə 52,5 faiz, bostan məhsulları istehsalı 17,2 faiz, diri çəkidə ət istehsalı 79 faiz, süd 2,6 faiz, yumurta istehsalı 1,4 faiz artıb. Həmin dövrdə rayonda 70 yeni müəssisə yaradılıb, 2727 yeni iş yeri açılıb, işsizlik 5,2 faizə düşüb.

Çayçılıq, çəltikçilik vüsətlə inkişaf etdirilir. Fermerlərin fəaliyyəti üçün geniş imkanlar açılıb. Kolatan kəndində "Azərsun" Holdinq tərəfindən 100 hektar çay plantasiyası salınıb. Ərkivan qəsəbəsində, Mahmudavar Hişkədərə, Miyankü, Tüklə kəndlərində yeni çay kolları əkilib.

Ümumi uzunluğu 18 kilometr olan Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolu əsaslı təmir edilərək istifadəyə verilib. Masallı respublikamızda həm də böyük turizm diyarı kimi tanınır.

**Cəlilabad** respublikamızın böyük iqtisadi potensiala malik rayonlarından biridir. **Rayon statistika idarəsinin rəisi Arif Nəcəfov** Dövlət proqramlarının icrası istiqamətində görülmüş işlərdən söhbət açaraq dedi:

- Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində rayonda genişmiqyaslı abadlıq, tikinti, quruculuq işləri görülüb. Cəlilabad şəhərində Heydər Əliyev Mərkəzi, Heydər Əliyev Muzeyi inşa olunub. Ulu öndərin adını daşıyan seyrəngah salınıb. Cəlilabad Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, uşaq-gənclər şahmat məktəbi və çoxlu sayda sosial obyektlər tikilib. 145 çarpayılıq mərkəzi rayon xəstəxanası, Cəlilabad Telekommunikasiya Qovşağının inzibati və texnoloji binası, rayon tarix-diyarşünaslıq muzeyi, şəhər avtovağzalının inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Cəlilabad şəhərinin içməli su və kanalizasiya sistemi əsaslı şəkildə yenidən qurulub.

Aqrar sahə dinamik inkişaf edir. "Avanqard" MMC taxılçılıq və heyvandarlıq sahəsində qabaqcıl təcrübəyə malikdir. Möhtərəm Prezidentimiz Cəlilabada növbəti səfəri çərçivəsində müəssisənin taxılçılıq təsərrüfatı ilə tanış olmuş, un dəyirmanı və taxıl anbarının, dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin açılış mərasimində iştirak etmişdir.

Son illər yerli əhəmiyyətli avtomobil yollarının tikintisinə diqqət artırılıb. Təklə-Abazallı, Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Şötüklü-Bayxanlı-Məlikqasımlı, Şötüklü-Dostallı-Məşədilər-Məmmədrzalı-Şorbaçı, Şiləvəngə-Adnalı-Bədirli kəndarası avtomobil yolları tikilib istifadəyə verilib.

Rayonun Albalan, Alaşar, Hasıllı, Cəfərli və digər kəndlərində modul tipli məktəb binaları, Cəlilabad şəhərində 624 şagird yerlik 3 nömrəli tam orta məktəb üçün yeni bina inşa olunub. Kövüzbulaq və Musalı kəndlərində ikimərtəbəli məktəb binaları tikilib. Göytəpə şəhərində 60 çarpayılıq xəstəxananın inşası davam etdirilir.

Dövlət proqramları çərçivəsində **Astara** rayonunda irimiqyaslı layihələr həyata keçirilib. Astara elektrik stansiyası, qaz kompressor stansiyasının birinci və ikinci bloku, Astara şəhərində müasir memarlıq üslubunda Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binası, Gənclər evi, Olimpiya İdman Kompleksi, Boks Mərkəzi, Astara gömrük buraxılış məntəqəsinin yeni inzibati binası, dənizkənarı park-bulvar kompleksi, beynəlxalq əhəmiyyətli Ələt-Astara avtomobil yolu, Astara-Bala Şahağac, Kijəbə-Qəcimardə, Kijəbə-Ojakəran, Ərçivan-Şüvi-Qapıçıməhəllə, Deqədi-Pəlikəş, Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi avtomobil yolları inşa edilib.







Rayonda 50-yə yaxın məktəb, uşaq bağçası yenidən tikilib, yaxud əsaslı təmir olunub. Astara Rayon Mərkəzi Xəstəxanası əsaslı şəkildə təmir edilib. Şəhid ailələri, Qarabağ və Çernobıl əlilləri üçün çoxmərtəbəli yaşayış binaları, fərdi evlər inşa olunub. Astara şəhərinə içməli su xətti çəkilib. Şəhərdaxili və kəndarası yollar təmir olunub.

Cənab Prezidentin müvafiq Sərəncamı ilə Dolu, Diqo, Avyarud, Sibiyyət kəndlərinə ilk dəfə avtomobil yolu və elektrik xətləri çəkilib. Sakinlər göstərilən yüksək diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

Astarada sitrus meyvələrin istehsalına diqqət artıb. Rayona şaxtaya davamlı və yüksək məhsuldarlığa malik Satsoma, Primasol, Ortanik, Nova, Rubinson və Okitsu sortlu tinglər əkilib.

Ərçivan qəsəbəsində Çin Xalq Respublikasından gətirilən müasir çəltik emalı zavodu quraşdırılaraq çəltikçilərin istifadəsinə verilib. Müəssisənin gündəlik emal gücü 40 ton, çəltik qurutma imkanı 10 tondur.

Bu gözəl, füsunkar diyara turistlərin gəlişi ilbəil artır. Astara şəhərində "Mandarinnart" hoteli, Kijəbə qəsəbəsində "Balıqçı" istirahət mərkəzi, Çayoba kəndində sosial layihə çərçivəsində açıq və qapalı mini futbol və voleybol meydançaları tikilib istifadəyə verilib.

Dövlət proqramlarının icrası sayəsində **Lerik** şəhərinin və kəndlərin siması xeyli dəyişib. **Rayon İcra Hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov** dövlətimizin qayğısı sayəsində görülmüş işlər haqqında məlumat verərək dedi:

- Regionların sosial-iqtisadi inkişafının nəticələrini ucqar dağ rayonu Lerikin timsalında aydın görmək olar. Leriklilər uzun illər yol sarıdan əziyyət çəkiblər. 2003-cü ilin prezident seçkilərindən dərhal sonra möhtərəm Prezidentimiz 56 kilometrlik Lənkəran-Lerik yolunun əsaslı şəkildə yenidən çəkilməsi üçün vəsait ayırdı. Dövlətimizin başçısı 2005-ci il sentyabr ayının 8-də bu yolun açılış mərasimində şəxsən iştirak etdi.

Ölkə başçısının yüksək qayğısı sayəsində 2006-cı ilin oktyabr ayında rayona ilk dəfə təbii qaz verildi. Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, Lerik Rayon İcra Hakimiyyətinin yeni inzibati binası, Şəhidlər abidə-kompleksi tikildi, uşaq incəsənət məktəbi, uzunömürlülər muzeyi, mədəniyyət evi və rayon mərkəzi xəstəxanası əsaslı şəkildə yenidən quruldu.

1985-2003-cü illərdə rayonda cəmi 3 məktəb binası tikilibsə, 21 il ərzində 94 məktəb təzədən tikilib, yaxud əsaslı təmir edilib. Lerik şəhərindəki Valeh İbrahimov adına inteqrasiya təlimli internat tipli gimnaziyanın tədris korpusu əsaslı təmir edilib, yeni yataqxana binası, yeməkxana və idman korpusu tikilib.

Dövlət proqramları çərçivəsində rayonun kəndlərinə asfalt yollar çəkilib. 2013-cü ildə uzunluğu 26,5 kilometr olan Lerik-Qomalian-Kələvz, 2016-cı ildə 36 kilometrlik Noda-Şingədulan-Xanagah, 2018-ci ilin oktyabr ayında 27 kilometrlik Piran-Hamarat-Vijaker, 23 kilometrlik Lerik-Şinəband-Orand-Nuravud-Zardəbərə avtomobil yolu əsaslı təmir edilərək istifadəyə verilib.

Dövlət Proqramı çərçivəsində Lerik şəhərinə 18 kilometr məsafədən Şonaycola kəndindən içməli su xətti çəkilib. İlk dəfə rayon mərkəzində kanalizasiya sistemi qurulub.

Enerji təchizatını yaxşılaşdırmaq məqsədilə Lerik şəhərində 16,5 meqavat gücündə modul tipli elektrik stansiyası tikilib. Dövlət Proqramı əsasında 61 kənd qazlaşdırılıb. Rayonun daha 47 kəndinə qaz çəkilişi üçün sənədlər hazırlanıb və bu barədə müvafiq təşkilatlara müraciətlər olunub.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Dağlar diyarında 15 min hektara yaxın əkinəyararlı torpaq sahəsinin cəmi 5 min hektarı əkilir. Kənd təsərrüfatı texnikasının azlığı aqrar sahənin inkişafında ciddi problemlər yaradır.

Rayonda mini süd qəbulu və ət tədarükü məntəqələrinin, meyvə emalı sexlərinin yaradılması, ekoloji cəhətdən təmiz balın sənaye üsulu ilə qablaşdırılması əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayacaqdır. Rayonda üzümçülüyün bərpası, xalça fabrikinin açılması işsizliklə bağlı problemlərin həllinə kömək edə bilər. Yerli xammallardan istifadə etməklə tikinti materiallarının, o cümlədən əhəng, sement, mərmər, üzlük daşları, kərpic istehsalını da həyata keçirmək mümkündür.

Dövlət proqramlarının icrası ilə əlaqədar **Yardımlı** rayonunda xeyli iş görülüb. Yardımlı şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan xatirə parkı salınıb, Heydər Əliyev Mərkəzi inşa edilib. Pirenbel kəndində Heydər parkı tikilib, rayon mədəniyyət mərkəzi əsaslı təmir olunub.

2004-cü ildən başlayaraq rayonda müasir və modul tipli məktəb binaları, uşaq bağçaları, uşaq incəsənət məktəbi tikilib. Mərkəzi Rayon Xəstəxanası əsaslı təmir edilərək müasir inventar və tibbi avadanlıqlarla təchiz olunub. Avaş, Şıxlar, Hamarkənd, Porsova və digər kəndlərdə həkim məntəqələri inşa edilib. Yardımlı şəhərində idman kompleksi tikilib istifadəyə verilib.

Rayon mərkəzinə su xətti çəkilərək fasiləsiz su verilişi təmin edilib. Müasir tələblərə cavab verən kanalizasiya sistemi qurulub. Sineyir su mənbəyindən kəndlərə su xətləri çəkilib. Bir neçə kənddə artezian quyuları qazılıb.

2006-cı ildə rayon mərkəzi qazlaşdırılıb. Hazırda 20 yaşayış məntəqəsi mavi yanacaqdan istifadə edir. Hamarkənd, Nisəqala, Avur kəndlərinin qazlaşdırılması istiqamətində son tamamlanma işləri görülür.

Rayonda yol problemi həll olunur. 32 kilometrlik Yardımlı-Avaş-Deman-Arvana, 14 kilometrlik Yardımlı-Hamarkənd-Abasabad, 22 kilometrlik Yardımlı-Bozayran-Osnakəran-Vərgədüz-Bürzünbül-Bilnə-Sırıq, Şəfəqli-Pirenbel, Yardımlı-Çayüzü, Yardımlı-Ostayır və digər avtomobil yolları əsaslı şəkildə yenidən qurulub. Yardımlı-Hamarkənd, Sırıq-Vərgədüz yolunda, Keçələkəran və Teşkan kəndlərində körpülər qoyulub.

Dövlət proqramlarının uğurla icrası nəticəsində cənub bölgəsinin rayonları ölkəmizin sürətli inkişafında, tərəqqisində önəmli rol oynayır. Həyata keçirilən tədbirlər regionda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində, güzəranının daha da yaxşılaşmasında dönüş yaradıb. İnsanlar görülmüş işlərdən razılıqlarını, məmnunluqlarını ifadə edir, sabaha böyük inam və ümid bəsləyirlər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**